Hava hərəkətinin idarə olunmasında səhvlər nəticəsində yaranan fövqəladə hallar.

Təhlükə anlayışı.

Bizi əhatə edən aləmdə tez – tez gözlənilməyən hadisələr baş verir ki , nəticədə insanların mülkiyyətinə çoxlu ziyan dəyir. Belə hadisələr bəzən insanların özlərinin məsuliyyətsizliyi nəticəsində, bəzən digər insanların bilmədən və ya bilərəkdən törətdikləri hadisələrdən , bəzi hallarda isə gözlənilmədən təbiətdə baş verən hadisələr nəticəsində meydana çıxır.
Təbiidir ki, insanların sağlamlığına və mülkiyyətinə ziyan verə bilən hadisələr xoşagəlməz hadisələrdir.
Belə hadisələr insanların həyatına və əmlakına təhlükə yaradır. Yəni təhlükə insan sağlamlığına, onun normal həyat fəaliyyətinə , eləcə də onun əmlakının yararlılığına maneəçilik törədən hadisədir və qabaqcadan planlaşdırılan fəaliyyət istiqamətinə maneə yaradan amildir.

Təhlükənin yaranma səbəbləri.

Biznes fəaliyyəti yarandığı gündən təhlükələrlə üzləşmişdir. Bu təhlükələrin yaranma səbəbləri müxtəlifdir. Hələ qədim zamanlarda ticarət karvanlarına quldur basqınları, ticarət gəmilərinə dəniz quldurlarının hücumu,